2019-cu ilin yanvar-fevral aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 46769 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 36823,7 min ABŞ dollarını, yaxud 78,7 faizini ixrac, 9945,3 min ABŞ dollarını, yaxud 21,3 faizini idxal təşkil etmişdir.

İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 36 milyon 823 min 700 ABŞ dollar təşkil etmiş, 26 milyon 878 min 400 Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.